Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 2 ” mart tarixli
59 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemi haqqında**

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra – Xidmət) vahid elektron informasiya sisteminin (bundan sonra – VEİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. VEİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Xidmətin fəaliyyətinin, habelə onun dövlət orqanları (qurumları), digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, VEİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. VEİS-in formalaşdırılmasının məqsədi çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının və uçotunun aparılması, tibbi şəhadətləndirilməsi üçün tibbi və psixoloji müayinələrinin keçirilməsi, hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə çağırışın təşkili və həyata keçirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi və çağırışdan azad edilməsi, hərbi xidmətlə bağlı sənədlərin elektron formada təqdim edilməsi, vətəndaşların müraciətlərinin qəbul edilməsi və cavablandırılması, həmçinin hərbi-nəqliyyat vasitələrinin uçotunun aparılması sahələrində (bundan sonra – müvafiq sahə) dövlət idarəetməsinin optimallaşdırılmasından, elektron məlumat mübadiləsinin və təhlillərin aparılmasından, proqnozların və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. VEİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. VEİS-in sahibi və operatoru Xidmətdir.

1.6. Fərdi məlumatların VEİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların VEİS-də toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.7. VEİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. VEİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.9. Bu Əsasnamədə istifadə olunan anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

1.10. Bu Əsasnamənin müddəaları “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslərə, habelə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra – DTX) və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin (bundan sonra – XKX) ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə şamil edilmir.

1.11. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

## 2. VEİS-in texniki-texnoloji infrastrukturu

2.1. VEİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurularaq, VEİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə VEİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. VEİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq, VEİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. VEİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları – Xidmətin struktur bölmələri tərəfindən;

2.4.2. VEİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. VEİS-də formalaşdırılan, ona daxil edilən və ötürülən məlumatlar VEİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli VEİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə VEİS, o cümlədən VEİS-də toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. VEİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

## 3. VEİS-in altsistemləri

3.1. VEİS-in strukturuna aşağıdakı altsistemlər daxildir:

3.1.1. "İdarəetmə" altsistemi;

3.1.2. "Çağırışaqədər yaş həddində olan vətəndaşlar" altsistemi;

3.1.3. "Çağırışçılar" altsistemi;

3.1.4. "Həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxslər" altsistemi;

3.1.5. "Tibbi şəhadətləndirilmə" altsistemi;

3.1.6. "Hərbi vəzifəlilər" altsistemi;

3.1.7. "Hərbi vəzifəli olmayanlar" altsistemi;

3.1.8. "Səfərbərlik hazırlığı və səfərbərlik" altsistemi;

3.1.9. "Hərbi uçot" altsistemi;

3.1.10. "İnzibati xətalar" altsistemi;

3.1.11. "Hesabatlılıq" altsistemi;

3.1.12. "Məlumatlandırma" altsistemi;

3.1.13. "Hərbi-nəqliyyat vasitələri" altsistemi.

3.2. VEİS-in strukturuna daxil olan altsistemlər vasitəsilə aşağıdakılar təmin edilir:

3.2.1. "İdarəetmə" altsistemi vasitəsilə VEİS-in fəaliyyətinin effektiv şəkildə planlaşdırılması, izlənilməsi, koordinasiya edilməsi və qərar qəbul etmə prosesinin dəstəklənməsi;

3.2.2. "Çağırışaqədər yaş həddində olan vətəndaşlar" altsistemi vasitəsilə ilkin hərbi qeydiyyata alınma yaş həddində olan Azərbaycan Respublikasının vətəndaşlarının hərbi qeydiyyata alınmasına dair proseslərin təşkili, idarə və nəzarət edilməsi;

3.2.3. "Çağırışçılar" altsistemi vasitəsilə ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan, müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 30 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması işinə dair proseslərin təşkili, idarə və nəzarət edilməsi;

3.2.4. "Həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxslər" altsistemi vasitəsilə Xidmətin hərbi qeydiyyatından çıxarılaraq həqiqi hərbi xidmətə göndərilənlər, səfərbərlik və toplanışlar üzrə hərbi xidmət keçənlər barədə

məlumatların formalaşdırılması, habelə həqiqi hərbi xidmətdən buraxılanların (tərxis olunanların) qeydiyyata alınmasına nəzarət edilməsi;

3.2.5. “Tibbi şəhadətləndirilmə” altsistemi vasitəsilə tibbi şəhadətləndirilmək üçün çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin tibbi və psixoloji müayinələrinin nəticələrinin, dispanser qeydiyyatlarının, xəstəlik tarixçələrinin, peyvənd olmaları barədə məlumatların, dövlət tibb müəssisələrində müayinə olunmaları üçün verilən göndərişlər barədə məlumatların, sağlamlıq vəziyyətlərinin müayinə edilməsi aktları barədə məlumatların, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin keçirdiyi yekun tibbi müayinənin nəticələrinin, həmçinin aidiyyəti dövlət orqanlarının tabeliyindəki hərbi-həkim komissiyalarının rəy və təkliflərinin (hərbi qulluqçulara münasibətdə istisna olmaqla) toplanılması və işlənilməsi;

3.2.6. “Hərbi vəzifəlilər” altsistemi vasitəsilə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ehtiyata keçirilmiş vətəndaşlar barədə məlumatların formalaşdırılması, onların hərbi qeydiyyatı ilə bağlı proseslərin təşkili, idarə və nəzarət edilməsi;

3.2.7. “Hərbi vəzifəli olmayanlar” altsistemi vasitəsilə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hərbi qeydiyyata götürülməli olmayan və istefaya buraxılmış (keçirilmiş) vətəndaşlar barədə məlumatların formalaşdırılması, qeydiyyat işinin təşkil edilməsi;

3.2.8. “Səfərbərlik hazırlığı və səfərbərlik” altsistemi vasitəsilə səfərbərlik hazırlığı və səfərbərlik zamanı mərkəzləşdirilmiş rəhbərlik, qabaqcadan hazırlıq, planlı iş və nəzarət prinsipləri əsasında həyata keçirilməli olan proseslərin təşkili, idarə və nəzarət edilməsi;

3.2.9. “Hərbi uçot” altsistemi vasitəsilə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət orqanları (qurumları), yerli özünüidarə orqanları və hüquqi şəxslər tərəfindən çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması, həmçinin “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sahədə dövlət orqanlarının (qurumlarının), yerli özünüidarə orqanlarının və hüquqi şəxslərin vəzifə və öhdəliklərinin yerinə yetirilməsi işinin təşkili, idarə və nəzarət edilməsi;

3.2.10. “İnzibati xətalar” altsistemi vasitəsilə hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xətalar və həmin xətaları törətmiş çağırışaqədər yaş həddində olan vətəndaşlar, çağırışçılar, hərbi vəzifəlilər, həmçinin vəzifəli və hüquqi şəxslər barədə məlumatların uçotu və sistemləşdirilməsi işinin təşkili, idarə və nəzarət edilməsi;

3.2.11. “Hesabatlılıq” altsistemi vasitəsilə məlumatların idarə olunması və analitik işlənməsi təmin edilməklə, istifadəçilərə məlumatın analizi və qərar qəbuletmə prosesləri üçün müxtəlif növ hesabatların, göstəricilərin və təhlillərin təqdim olunması işinin təşkili, idarə və nəzarət edilməsi;

3.2.12. “Məlumatlandırma” altsistemi vasitəsilə çağırışaqədər yaş həddində olan vətəndaşlar, çağırışçılar, hərbi vəzifəlilər, həmçinin dövlət orqanları (qurumları), digər fiziki və hüquqi şəxslərlə kommunikasiyanın qurulması;

3.2.13. “Hərbi-nəqliyyat vasitələri” altsistemi vasitəsilə dövlət orqanları (qurumları) və yerli özünüidarə orqanları, mülkiyyət formasından asılı olmayaraq nəqliyyat vasitələrinin mülkiyyətçisi (sahibi) olan, habelə nəqliyyat vasitələrinin işləməsini təmin edən hüquqi şəxslərlə və nəqliyyat vasitələrinin mülkiyyətçisi olan fiziki şəxslərlə qarşılıqlı fəaliyyətin təmin edilməsi yolu ilə hərbi-nəqliyyat vasitələrinin uçotunun aparılması işinin təşkil edilməsi.

3.3. VEİS-in altsistemləri Xidmətdə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyanı, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını, habelə müvafiq sahədə mərkəzləşdirilmiş elektron xidmətlər göstərilməsini təmin edir.

## 4. VEİS-ə daxil edilən və ötürülən məlumatlar

4.1. Məlumat mübadiləsinin operativliyini və səmərəliliyini artırmaq məqsədilə VEİS normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, digər dövlət informasiya sistemləri ilə əlaqəli fəaliyyət göstərir.

4.2. VEİS-ə aşağıdakı məlumatlar daxil edilir:

4.2.1. müddətli həqiqi hərbi xidmətə qəbul edilən şəxslərlə bağlı məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN), qeydiyyat ünvanı, xidmət etdiyi dövlət orqanının adı və hərbi hissənin nömrəsi (hərbi hissənin nömrəsinə münasibətdə DTX, XKX və Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidməti istisna olmaqla), müddətli həqiqi hərbi xidmətin başlanma və bitmə tarixləri);

4.2.2. müddətli həqiqi hərbi xidmət keçmək üçün göndərilənlərdən ehtiyata buraxılmadan zabit, gizir, miçman, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (bundan sonra – MAHHXHQ) qismində həqiqi hərbi xidmətə qəbul edilənlər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, hərbi rütbəsi, vəzifəsi və hərbi uçot ixtisası, xidmətə qəbul olunma tarixi, xidmət yeri);

4.2.3. həqiqi hərbi xidmətdən ehtiyata (istefaya) buraxılmış şəxslərə dair məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, hərbi rütbəsi, xidmət müddəti, xidmət keçdiyi hərbi hissə, qoşun növü, hərbi uçot ixtisasları (ixtisası), vəzifələri (vəzifəsi), döyüş və xüsusi əməliyyatlarda iştirakı, fəxri adı və dövlət təltifləri, ehtiyata və ya istefaya buraxılma əmri (sərəncamı) və səbəbi);

4.2.4. ehtiyatdan həqiqi hərbi xidmətə (zabit, gizir, miçman, MAHHXHQ qismində) qəbul edilmişlər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, cinsi, hərbi rütbəsi, xidmətə qəbul edilmə əmri və tarixi, vəzifəsi və hərbi uçot ixtisası, xidmət yeri);

4.2.5. səfərbərlik üzrə hərbi xidmət keçmiş hərbi vəzifəlilər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, xidmət müddəti, xidmət etdiyi hərbi hissə, qoşun növü, hərbi uçot ixtisası, vəzifəsi, hərbi rütbəsi, döyüş və xüsusi əməliyyatlarda iştirakı, tərxis olunma əmri və səbəbi);

4.2.6. toplanış keçmiş hərbi vəzifəlilər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, toplanışın növü və müddəti, toplanış keçdiyi hərbi hissə, qoşun növü, hərbi uçot ixtisası, vəzifəsi və hərbi rütbəsi);

4.2.7. təxsis (bron) edilmiş şəxslər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, hərbi uçot ixtisası, təxsis (bron) edən qurumun adı, tutduğu vəzifə);

4.2.8. Azərbaycan Respublikasının şəhər və rayonları üzrə kişi və qadın cinsli vətəndaşların say tərkibi barədə məlumatlar;

4.2.9. hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xətaları törətmiş çağırışaqədər yaş həddində olan vətəndaşlar (onların qanuni nümayəndələri), çağırışçılar, hərbi vəzifəlilər, həmçinin vəzifəli və hüquqi şəxslər barədə məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, əlaqə vasitəsi, vəzifəli şəxsin vəzifəsi, hüquqi şəxsin adı, hüquqi ünvanı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti, inzibati xəta haqqında işin baxılması tarixi və yeri, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin maddəsi, inzibati xəta haqqında iş üzrə protokolun və qərarın tarixi və nömrəsi, tətbiq edilmiş inzibati tənbeh və icrası barədə məlumatlar).

4.3. Xidmət normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, dövlət xidmətlərinin göstərilməsi, vəzifələrinin icrası zamanı tələb olunan aşağıdakı məlumatları Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) üzərindən inteqrasiya yolu ilə ilkin mənbələrdən sorğu əsasında real vaxt rejimində əldə edir:

4.3.1. çağırışaqədər yaş həddində olan vətəndaşlarla bağlı məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, verildiyi tarix, yer və etibarlılıq müddəti, qeydiyyat ünvanı, doğum şəhadətnaməsinə dair məlumatlar, təhsil aldığı müəssisənin adı və ünvanı, oxuduğu sinif);

4.3.2. çağırışaqədər yaş həddində olan vətəndaşların ailə tərkibinə dair məlumatlar (ailə üzvlərinin soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, əlaqə vasitəsi, qohumluq dərəcəsi);

4.3.3. çağırışaqədər yaş həddində olan vətəndaşların sağlamlıq vəziyyəti barədə, o cümlədən onların icbari dispanserizasiyası, ilkin hərbi qeydiyyatla əlaqədar tibbi və psixoloji müayinələrin nəticələri barədə məlumatlar;

4.3.4. müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi və psixoloji müayinələrinin nəticələri, həmçinin yekun tibbi müayinəsi barədə məlumatlar;

4.3.5. hərbi vəzifəlilərin tibbi və psixoloji müayinələrinin nəticələri barədə məlumatlar;

4.3.6. Azərbaycan Respublikasının ümumi, peşə, orta ixtisas təhsili müəssisələrinə, ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ali təhsil müəssisələrinə qəbul olunanlar barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, cinsi, qəbul olunduğu tarix və təhsil müəssisəsinin adı, təhsilalma forması, ixtisası, təhsil müəssisəsindən xaric edilmiş, təhsil müəssisəsinə bərpa olunmuş və ya təhsilini bitirmiş şəxslərə münasibətdə müvafiq olaraq təhsil müəssisəsindən xaric edildiyi, təhsil müəssisəsinə bərpa olunduğu və təhsilini bitirdiyi tarix);

4.3.7. fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi olan vətəndaşlar barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, cinsi, elmi dərəcənin verilməsini təsdiq edən sənədin seriyası, nömrəsi, tarixi və elmi dərəcəsi);

4.3.8. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələri üzrə qəbul imtahanlarında, doktorantura səviyyəsinə qəbul üzrə xarici dil imtahanında iştirak etmək üçün müraciət edənlər barədə məlumatlar;

4.3.9. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyət göstərdiyi xarici ölkələrdə daimi və ya müvəqqəti yaşayan və müvafiq diplomatik nümayəndəlikdə və ya konsulluqda qeydiyyata alınmış çağırışçılar barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, qeydiyyata alındığı diplomatik nümayəndəlik və ya konsulluq, xarici ölkələrdə təhsil alan çağırış yaşlı vətəndaşlara münasibətdə - qəbul olunduğu təhsil müəssisəsinin adı, qəbul olunma tarixi, təhsil forması, ixtisası, təhsil müəssisəsini bitirmə və ya xaric olunma tarixi, müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı isə çağırışçıların xəbərdar edilməsinə dair məlumat);

4.3.10. xüsusi təyinatlı təhsil müəssisələrinə daxil olan şəxslər barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, hərbi rütbəsi, qəbul olunduğu təhsil müəssisəsinin adı, qəbul olunma tarixi, ixtisası, bitirmə və yaxud xaric olunma (səbəbi göstərilməklə) tarixi, habelə xüsusi təyinatlı təhsil müəssisəsindən xaric olunduqdan sonra müddətli həqiqi hərbi xidmətə göndərilmə tarixi və xidmət etdiyi hərbi hissənin nömrəsi (hərbi hissənin nömrəsinə münasibətdə DTX istisna olmaqla);

4.3.11. çağırışçıların və hərbi vəzifəlilərin xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması barədə məlumatlar;

4.3.12. çağırışçıların və hərbi vəzifəlilərin nikahı barədə məlumatlar (nikahın bağlanma tarixi, nikah haqqında şəhadətnamənin nömrəsi, arvadının (ərinin) soyadı, adı, atasının adı, FİN-i, nikahın pozulması halında isə onun tarixi, nikahın pozulması haqqında şəhadətnamənin nömrəsi);

4.3.13. vəfat etmiş, həlak olmuş və itkin düşmüş hərbi qulluqçular barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, cinsi, hərbi rütbəsi, vəzifəsi, baş

vermiş hadisənin (vəfat etmə, həlak olma və ya itkin düşmə) tarixi, səbəbi və şəraiti, fakta dair arayış verən səlahiyyətli şəxsin soyadı, adı və atasının adı, hərbi rütbəsi, vəzifəsi, arayışın (bildiriş və ya əmrdən çıxarış) nömrə və tarixi, ölüm haqqında şəhadətnamənin nömrəsi və tarixi, həlak olma və ya itkin düşmə faktı ilə əlaqədar prokurorluq orqanının qərarı, şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədə məhkəmə qətnaməsi);

4.3.14. hərbi xidmətdən və ya tibbi müayinədən yayınan çağırışçıların və hərbi vəzifəlilərin sərhədkeçməsi, sərhədkeçməyə məhdudiyyət siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, ölkə ərazisini tərk etmə və ya ölkəyə geri qayıtma vaxtı, getdiyi ölkə, siyahıya daxil edilmə və ya siyahıdan çıxarılma tarixi və səbəbi);

4.3.15. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin barəsində cinayət işinin başlanılması və ya məhkəməyədək sadələşdirilmiş icraatın açılması, cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat üzrə cinayət təqibinin aparılması və nəticəsi, barələrində xüsusi ittiham qaydasında şikayətə məhkəmədə baxılması və nəticəsi, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi (maddələri), təyin edilmiş cəza, cəzanın icrası və məhkumluğu barədə məlumatlar;

4.3.16. çağırışçıların və hərbi vəzifəlilərin mobil və ev telefonları barədə məlumatlar;

4.3.17. çağırışçıların və hərbi vəzifəlilərin şəxsiyyət vəsiqəsi (seriyası, nömrəsi və FİN-i, verilmə tarixi, verən orqanın adı, etibarlılıq müddəti) və sürücülük vəsiqəsi (nömrəsi, verilmə tarixi, verən orqanın adı, etibarlılıq müddəti, kateqoriyası) barədə məlumatlar;

4.3.18. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin yaşayış yeri üzrə müvəqqəti qeydiyyatı barədə məlumatlar;

4.3.19. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin vəfat etməsi barədə məlumatlar (vəfat etmə tarixi, ölüm haqqında şəhadətnamənin nömrəsi və tarixi);

4.3.20. çağırışçıların və hərbi vəzifəlilərin doğulmuş övladları barədə məlumatlar (qohumluq dərəcəsi, soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi, doğum haqqında şəhadətnaməsi, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı);

4.3.21. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin adının, ata adının və ya soyadının dəyişdirilməsi barədə məlumatlar (yeni soyadı, adı və ya atasının adı);

4.3.22. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin (həmçinin onların ailə üzvlərinin) əlilliyi barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, qohumluq əlaqəsi, əlilliyin müəyyən olunma tarixi, orqanizmin funksiyalarının pozulması faizi, səbəbi, müddəti);

4.3.23. çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyən

edilməsi, Azərbaycan Respublikasının vətəndaşlığından çıxması, vətəndaşlığının itirilməsi ilə bağlı məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i (olduğu halda), qeydiyyat ünvanı, hüquqi aktın nömrəsi və tarixi);

4.3.24. çağırışçıların və hərbi vəzifəlilərin məşğulluq vəziyyəti barədə məlumatlar (elektron sənəd formasında bağlanılmış əmək müqaviləsi və yaxud işsiz və ya işaxtaran şəxs kimi qeydiyyatda olması);

4.3.25. şəhid ailəsi statusu almış şəxslər barədə məlumatlar (soyadı, adı, atasının adı, FİN-i, şəhid statusu almış şəxslə qohumluq əlaqəsi, şəhid ailəsi statusunu təsdiq edən vəsiqənin nömrəsi və verilmə tarixi, şəhidin soyadı, adı, atasının adı, təvəllüdü, həlak olma (vəfat etmə) tarixi, şəhid statusunu təsdiq edən sənədin nömrəsi və verilmə tarixi);

4.3.26. müharibə veteranları barədə məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi, şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i, qeydiyyat ünvanı, müharibə veteranı vəsiqəsinin seriyası və nömrəsi, vəsiqəni verən orqanın adı, verilmə tarixi və protokol nömrəsi);

4.3.27. qeydiyyatı aparılan nəqliyyat vasitələri (hərbi xidmət nəzərdə tutulmuş dövlət orqanları (qurumları) istisna olmaqla) barədə məlumatlar (markası, modeli, tipi, buraxılış ili, şassi və mühərrik nömrəsi, dövlət qeydiyyat nişanı, texniki baxışı, məxsusluğu, mülkiyyətçisinin ünvanı və əlaqə vasitəsi);

4.3.28. hərbi xidmət nəzərdə tutulmuş dövlət orqanları (qurumları) istisna olmaqla, xüsusi təyinatlı nəqliyyat vasitələrinin, yük və sərnişin avtomobillərinin sayı barədə məlumatlar.

4.4. VEİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.5. VEİS-lə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) VEİS-ə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.6. VEİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

## 5. VEİS-dən istifadə qaydası

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan dövlət orqanlarının (qurumlarının) VEİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanlarının (qurumlarının) və digər hüquqi şəxslərin VEİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda dövlət orqanlarının (qurumlarının) və digər hüquqi şəxslərin rəhbər şəxsləri tərəfindən VEİS-də qeydiyyatdan keçirilən və

müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq VEİS-dən istifadə edirlər.

5.3. Fiziki şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə VEİS-də identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq VEİS-dən istifadə edirlər.

5.4. VEİS vasitəsilə Xidmət tərəfindən göstərilən elektron xidmətlərdən istifadə Xidmətin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, qanunla müəyyən edilmiş ödənişlərin edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. VEİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin VEİS-in fəaliyyətində iştirakını və ondan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

## 6. Sahibin vəzifələri və hüquqları

6.1. VEİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. VEİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. VEİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların VEİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. bu Əsasnamənin 1.11-ci bəndi nəzərə alınmaqla, VEİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə VEİS-ə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. VEİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və operator ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

6.1.6. VEİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. VEİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. VEİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. VEİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. VEİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti dövlət orqanlarının (qurumlarının) VEİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) VEİS-ə daxil etmək;

6.1.16. VEİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. VEİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. VEİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. VEİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. VEİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. VEİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. VEİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 7. Operatorun vəzifələri və hüquqları

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. VEİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və sahiblə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

7.1.2. VEİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. VEİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. VEİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. VEİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə VEİS-in “Hökumət buludu”nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. VEİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə VEİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət orqanlarını (qurumlarını) məlumatlandırmaq;

7.1.7. VEİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə VEİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) VEİS-ə daxil etmək;

7.1.9. VEİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. VEİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. VEİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında VEİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. VEİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. VEİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. aidiyyəti dövlət orqanlarının (qurumlarının) VEİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. VEİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. VEİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. VEİS ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik aparılması məqsədilə məsələ qaldırmaq;

7.2.4. VEİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər VEİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, VEİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 8. İştirakçıların vəzifələri və hüquqları

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. VEİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. VEİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə VEİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. VEİS-dən, habelə VEİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. VEİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun VEİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. VEİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. VEİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. VEİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

## 9. İstifadəçilərin hüquqları

9.1. İstifadəçilərin VEİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. VEİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. VEİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. VEİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.